10.61764/lasr.2.2023.73-81

**UOT 316.33**

**Qənimət Səfərov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*i.e.d., professor*
*e-mail: seferov.qenimet@aesma.edu.az*
*https://orcid.org/0000-0001-7291-8572*
**Səbinə Sadıqova**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
*i.ü.f.d, müəllim,*
*e-mail: sabina-w@mail.ru*
*https://opcid.org/0000-0002-0752-5630*

# NEFT-QAZ SƏNAYESİNİN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU

*Neft-qaz sənayesi Azərbaycan Respublikasının ənənəvi sənaye sahələrindəndir. Azərbaycanda neftlə təmas çox qədim zamanlara gedib çıxır və 1729-cu ildə Abşeron yarımadasında neft quyularının xəritəsinin mövcud olması faktları vardır. Neftin sənaye üsulu ilə istismarı isə Azərbaycanda mexanikləşdirilmiş üsulla ilk neft quyusunun qazılması (1872) və istismara verilməsindən başlayır. XIX əsrin əvvəllərində, yəni 1901-ci ildə dünyada hasil edilən neftin 49 %-i Azərbaycana, 39%-i Amerika Birləşmiş Ştatlarına (ABŞ),4 %- Rusiyaya və 8 % -i digər ölkələrə aiddir. Azərbaycan nefti həm keçmiş ittifaq, həm də indiki müstəqil ölkəmizin iqtisadiyyatının inkişafında mühüm rol oynamışdır. Təkcə onu demək kifayətdirki 1941-ci ildə Azərbaycanda 23.41 mln.ton neft hasil edilmiş, ikinci dünya müharibəsinin qalibiyyətlə başa çatmasında onun boyük rolu danılmaz olmuşdur. Müstəqilliyimizin bərpasından sonra da neft-qaz sənayesi Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafında çox mühüm əhəmiyyətə malik olmuşdur.*

***Məqsıəd*** –neft-qaz sənayesinin Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafındakı rolunu, bağlanan müqavilələrin reallaşmasının ölkə iqtisadiyyatına təsirini müəyyənləşdirməkdən ibarətdir.

***Metodologiya***–qruplaşdırma, sistemləşdirmə, riyazi-statistik modelləşdirmə metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri***–neft-qaz sənayesində bağlanmış müqavilələrin xüsusiyyətləri, onların nəticələrinin respublika iqtisadiyyatının sosial-iqtisadi inkişafına təsirinin öyrənilməsi, neft gəlirlərindən istifadə edərək qeyri-neft sektorunun inkişafının təmin olunması məsələləri araşdırılmışdır.

***Açar sözlər:*** Azərbaycan Respublikası, neft-qaz sənayesi, neft müqavilələri, sosial-iqtisadi inkişaf, riyazi-statistik modelləşdirmə

## Giriş

Azərbaycan Respublikasının inkişafının müasir dövründə bütün sənayenin və o cümlədən neft-qaz sənayesinin dərin dəyişiklik ərəfəsində olduğu, bu dəyişikliyin dünya iqtisadiyyatında cərəyan edən təbəllüadlara cavab verməsi vacibliyi yaranmışdır. Beləki, informasiya iqtisadiyyatı (rəqəmsal iqtisadiyyat, yaşıl iqtisadiyyat) şəraitində istənilən sənaye sahəsi və bütövlükdə ölkə iqtisadiyyatı dünyada gedən müsbət meyllərə cavab verməli, işlərini günün tələbləri səviyyəsində qurmalıdırlar.

Respublikada neft sənayesinin yüz əlli ildən çox yaşı var və bu müddətdə onlarla neft-qaz-kondensat yatağı açılmış və sənaye istismarına verilmişdir. Dünyada açıq dəniz şəraitində ilk neft quyularının qazılması və istismarı məhz Azərbaycanda həyata keçirilmişdir. Azərbaycanın quru ərazilərində istismar edilən neft yataqlarının böyük əksəriyyəti işlənmənin son mərhələsinə keçmiş və bu mərhələ üçün hasilat həcminin azalması, məhsulun sulaşma əmsalının yüksək

olması, təmirlər sayının çox oması, quyuların debitinin az olması, məhsul vahidinin maya dəyərinin böyük olması səciyyəvidir.

Azərbaycanın dəniz yataqlarında hasil edilən neft-qazın xüsusi çəkisi daha yüksəkdir və sənaye sahəsinin gələcək inkişafı da məhz bu yataqların adı ilə bağlığır.

Azərbaycanda 1994-cü ildə "Əsrin müqaviləsi" ilə başlayan, memarı və rəhbəri Ulu öndər Heydər Əliyev cənabları olan Yeni neft siyasətinin reallaşdırılması ölkə iqtisadiyyatını inkişafında dönüş yaratdı və bütövlükdə iqtisadiyyatımızın gələcək inkişafını müəyyən etdi.

**Yeni neft siyasətinə aparan yol**

Planetimizdə ilk neft quyusu Azərbaycanda, məhz Abşeron yarımadasında 1847-ci ildə qazılmışdır. Bununla belə tarixi mənbələrə görə Balaxanılı usta Allahyarın 1594-cü ildə inşa etdiyi 60 metrlik quyu barədə məlumatlar vardır. Ölkəmizdə 1724-cü ildə Abşeronda mövcud olan quyuların xəritəsi tərtib olunmuşdur. 1872-ci ildə Rusiyada hasil olunan 27 min ton neftin 26 min tonu, yəni 96,3%-i Azərbaycanda, qalan hissəsi isə Qroznı və Krasnodarda çıxarılmışdır. Artıq 1894-cü ildə Azərbaycan ABŞ-ı qədər və 1901-ci ildə isə Bakı dünyada hasilat həcminə görə birinci yerdə olmuşdur. Həmin il dünyada 20 mln ton neft hasil olunmuşdurki bunun da yarıdan çoxu Azərbaycanın payına düşürdü (1-6).

XIXəsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda yerli və xarici neft inhisarları meydana gəldilərki, bunlarda neft yataqlarının amansız istismarını həyata keçirdilər. 1872-ci ildən 1917-ci il oktyabr çevrilişinə qədər Rusiyada hasil olunmuş 270,2 min ton neftin 84,1%-i Azərbaycanın payına düşürdü. Sadalanan faktlar dünyada neft hasilatının tarixinin əsas hissəsinin Bakı ilə bağlılığının şəksizliyinə bir daha əsas verir. Elə buna görə də Ümumimilli Lider H.Əliyev cənablarının 1997-ci ilin iyul-avqust aylarında ABŞ-da rəsmi səfərdə olarkən görüşlərdə Abşeronda, Bakıda neft hasilatının, zəngin tarixə malik olması ilə əlaqədar faktlara istinad etməsi Amerikanın işgüzar dairələrinin, neft kompaniyalarının xüsusi marağına səbəb olmuşdur.

Akademik Azad Mirzəcanzadə və Çapay Sultanovun (6,s.14) qeyd etdikləri kimi "Tarixi olaraq belə omuşdurki, sovet dövlətinin qurulduğu, Böyük Vətən müharibəsi, dirçəliş və xalq təsərrüfatının inkişafının eksterimal hallarında Azərbaycanın neft yataqlarının buraxıla bilən həddi aşan intensiv işlənməsi tələb olunmuşdur. Planlı olaraq qazmaq və neft yataqlarını səmərəli istismar etmək əvəzinə, onun aktiv hissəsinin tez istismarına güc verilmişdir ki, bu yerin təkinə düzəldilməsi mümkün olmayan ziyan vurmuşdur".

Məlum olduğu kimi, Azərbaycanda neft qədimdən hasil edilsə də, yalnız XIX əsrin ortalarında sənaye xarakteri almışdır. Azərbaycanın neftqaz çıxarma sənayesi bütün tarixi ərzində müxtəlif inkişaf mərhələlərini yaşamış, hasilatın dinamikasında bir çox amillər və meyllər nəzərə çarpmışdır. Fikrimizcə bu mərhələləri şərti olaraq aşağıdakılara bölmək olar:

1. İntensiv neft hasilatına başlanmasına qədərki dövr. Bu dövrdə (1837) Balaxanıda ilk neftayırma ("fotogen-kerosin") zavodu tikilmişdir. 1844-1847-ci illərdə Xəzər dənizi sahilində Bibiheybətdə ilk dəfə mexanikləşdirilmiş üsulla neft quyusu qazılmışdır.
2. 1872-1920 -ci ilə qədərki dövr. 1873-cü ildə quyuların sayı 1872-ci ilə nisbətən 9-dan 1740- qədər çatmış, 1898-ci ildə neft hasilatı ABŞ-dan çox olmuş və dünyada birinci yerə çıxmışdır. Bu dövrün ən mürəkkəb mərhələsi gənc müstəqil Azərbaycan Xalq Cümhuriyyəti mərhələsidir.Bu dövrdə Azərbaycanda 240 min ton neft hasil edilmişdir.
3. 1921-1940-cı illər.Rusiyada oktyabr çevrilişi, Azərbaycanda Sovet hökumətinin qurulması neft sənayesinin inlişafına öz təsirini göstərmişdir. I beşillikdə Azərbaycanın neft sənayesinin bərpası başa çatdı. 1928-ci ildə hasilat 11,6 min tona yüksəldi, 2-ci və 3-cü beşillikdə Qaraçuxur və Zığ yataqlarının kəşfi ilə əlaqədar hasialat həcmində artım oldu.Bu tarixi dövrdə Azərbaycanda 235 min ton neft hasil edildi.
4. 1941-1949-cu illər .II dünya müharibəsinin başlanması ilə Azərbaycanın neft mədənlərindən xeyli texnika, 5457 yük avtomobili,traktor parkının yarıdan çoxu orduya göndərildi. Bu dövrdə Qala, Lökbatan, Binəqədi, Qaradağ, Şonqar və s. yataqlar açılıb istismara verildi, 1941-ci ildə neft hasilatı rekord həddə çatdı-23,541 mln ton (ittifaqın 71%-i). 1947-ci ildə Gürgan-dəniz, 1949-cu ildə isə əfsanəvi Neft Daşları yataqlarının istismara verilməsilə hasilat həcmi xeyli

yüksəldi. 1968-ci ildə Neft Daşlarında illik hasilat 6 mln ton olmuş, həmin il Azərbaycanda 18 mln ton, bütövlükdə İttifaqda isə 60 mln ton neft hasil olunmuşdur.

5. 1950-1980-ci illər. Bu dövrdə Xəzər dənizinin Azərbaycan sektorunda geoloji-kəşfiyyat işlərinin təşəkkül tapması daha sonra Qum adası, Darvin bankası, Sanqaçal-dəniz-Duvannı-dəniz, Bulla adası, Qum-dəniz, Bahar, Günəşli və s. yataqların açılmasını təmin etdi.

6. 1981-1991-ci illər. SSRİ-də yenidənqurma və ittifaqın dağılması ərəfəsindəki illərdə hasilatın aşağı düşməsi ilə nəticələndiki bu da iqtisadiyyatın bütün sahələrinə, o cümlədən neft sənayesinə ciddi təsir göstərdi.

7. 1991-ci ildən başlanan müstəqilliyin bərpa edilməsi. Bu mərhələdə Azərbaycan öz müstəqilliyini möhkımətmək, sənayenin, o cümlədən neft sənayesini dirçəltmək və inkişaf etdirmək kimi məsul bir işin icrasını həyata keçirməyə başladı.

Yenidən hakimiyyətə gələn Ulu Öndər H.Əliyevin rəhbərliyi ilə təbii sərvətlərlə zəngin olan ölkəmizdə elə bir siyasi-iqtisadi mühit yaradıldıki dünyanın ən iri transmilli neft şirkətlərinin Azərbaycanda sərmayə qoymaq və əməkdaşlıq etmək imkanları yarandı.

Hazırda respublikamızda 81 neft-qaz-kondensat yatağı aşkar olunmuşdurki, onlardan 58 yataqdan karbohidrogen hasil edilir. Bu yataqların 39-u Azərbaycanın quru ərazisində, 19-u isə Xəzər dənizi ərazisindədir.

Azərbaycan neft sənayesinin həm keçmiş SSRİ, həm də dünya neft sənayesində özünəməxsus xüsusi yeri vardır. Beləki, yuxarıda qeyd olunduğu kimi, bu sənaye sahəsi və onun fəaliyyətinin nəticələri dünyada neftin sənaye üsulu ilə istismarına qədər və ondan sonrakı dövrlərdə böyük xüsusi çəkiyə malik olmuşdur.

**Azərbaycan iqtisadiyyatının inkişafında enerji amili**

Yanacaq-enerji kompleksi sənayenin əsas sahələrindən bir olmaqla Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafında xüsusi rol oynayır. Beləki, ölkənin ənənəvi sahələrindən olan neft sənayesi uzun təşəkkül prosesi keçmiş və inkişafında yeni mərhələsini yaşayır. İkinci dünya müharibəsində Qələbənin əldə edilməsində Azərbaycan nefti çox böyük rol oynadı. Lakin sonralar keçmiş ittifaqda yeni neft rayonlarının yaranması ilə Bakı neftinə olan maraq azaldı və əksinə bu sahəyə ögey münasibət bəslənilməyə başladı. İttifaqın süqutu ilə respublikalar arasındakı iqtisadi əlaqələrin kəsilməsi bütün postsovet məkanından, o cümlədən Azərbaycandan da yan keçmədi. Keçmiş ittifaqın mühüm əlamətlərindən biri ondan ibarət idi ki, bütün respublikalar bir-birindən çox asılı vəziyyətdə inkişaf edirdi. İqtisadi əlaqələr elə qurulmuşdurki, sanki heç bir respublika digərində asılı olmadan yaşaya bilməz. Bu isə o anlama gəlirdiki hər hansı respublikada iqtisadiyyatın canlanması ayrılıqda mümükün olmayacaqdı. Məhz belə bir situasiya Azərbaycan Respublikasının iqtisadiyyatı üçün də xas idi.

Digər tərəfdən özünü keçmiş ittifaqın varisi hesab edən Rusiyanın xarici siyasəti elə qurulmuşdurki, onlar keçmiş ittifaq respublikaları arasında daxılı çaxnaşmalar yaratmaq, onu dərinləşdirməklə bu respublikaların iqtisadiyyatını zəiflətməklə də məşğul olurdular. Həmçinin müstəqilliyimizin ilk illərində bədnam qonşularımızın bizə ərazi iddiası və ölkə daxilindəki hərc-mərcilik respublikanın bütün sahələrinin, o cümlədən neft sənayesinin işini çətinləşdirdi. Beləki, sənaye müəssisələri arasındakı ödəməmələr problemi, digər respublikalardan alınan vəsaitlərin catışmamazlığı ölkə iqtisadiyyatını iflic vəziyyətinə salmışdır.

Belə bir vaxtda ölkə rəhbərliyinə gəlmiş, Ümummilli Lider Heydər Əliyev cənabları “Hardan başlamalı?” sualı qarşısında qalmışdır. Lakin uzun müddət ölkəyə rəhbərlik etmiş bir şəxs kimi Heydər Əliyev bu sualın cavabını “Neft sənayesindən başlamalı” kimi dəyərləndirdi. Nə üçün məhz neft sənayesindən? Ona görəki həmin vaxtlar digər sənaye sahələrindən fərqli olaraq neft sənayesində infrastruktur normal vəziyyətdə idi, bu sənaye sahəsində yüksək ixtisaslı kadrlar iş başında idi, bu sənaye sahəsinin məhsulunun satış bazarı mövcud idi.

Məsələ burasındadırki, hər bir müstəqil dövlət öz inkişafını müəyyən etmək baxımından iqtisadi siyasət işləyib hazırlamalı, onun reallaşdırılması üçün öz xarici və daxili siyasətini ortaya qoymalıdır. İqtisadi siyasət dövlətçilik-vətəndaşlıq mövqeyi, peşəkarlıq, dərin bilik, əqidə saflığı

və diplomatik məram tələb edən olduqca məsuliyyətli işdir. Beləki, daha əlverişli investisiya mühiti yaradan ölkə, investisiya cəlb etmək uğrunda dövlətlərarası rəqabətdə qalib ola bilər.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan dünyanın 125-dən çox ölkəsi ilə qarşılıqlı iqtisadi əlaqələr qurmuşdur.Hazırda Azərbaycan Qafqaz və Xəzər regionunda mühüm rol oynayır. Həmçinin Azərbaycan təkcə neft və qaz resurslarına görə deyil, Qara dəniz- Xəzər hövzəsi və həm də Avrasiya nəqliyyat dəhlizindəki mühüm vəziyyətinə görə ABŞ, Avropa və Asiya ölkələrinin strateji maraq mərkəzinə çevrilmişdir.Dünya iqtisadiyyatına inteqrasiya şəraitində səmərəli və yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması Azərbaycanın sosial-iqtisadi inkişafının əsas məsələlərindəndir. Bütün bunlar Azərbaycanda yeni neft siyasətinin başlanğıcını qoyan "Əsrin müqaviləsi" adı altında 1994-cü ilin sentyabr ayının 20-də Bakıda imzalanan əsrin ən böyük müqaviləsilə reallaşdı.

Neft amilinin ölkənin sosial-iqtisadi dirçəlişində oynadığı rolu nəzərə alsaq, respublika rəhbərliyi bu sahənin inkişaf strategiyası ilə bağlı siyasət yeritməyi müstəqil Azərbaycanın dövlət siyasətinin aparıcı istiqamətlərindən biri kimi müəyyən edir. Bu dövlət siyasəti respublikada quruculuq işinə təkan verdi, qanunvericilik, xüsusilə xarici investorların hüquqlarının qorunması ilə bağlı qanunların, normativ aktların qəbul edilməsi işini sürətləndirdi.Ölkədə faydalı əməkdaşlığa əsaslanan "Açıq qapı" siyasətinin həyata keçirilməsi, xarici investorların qorunmasına təminat verilməsi və sahibkarlıq fəaliyyəti üçün mühitin yaradılması nəticəsində iqtisadiyyata qoyulan investisiyaların səmərəliliyi ilbəil artmaqdadır. Əsrin müqaviləsi və ondan sonra bağlanmış müqavilələrin iqtisadi, siyasi, sosial və digər sahələrdə misilsiz əhəmiyyəti vardır. Beləki, müqavilələrin reallaşdırılması yeni zavodların, platformaların, sahil terminallarının, boru kəmərlərinin və s. tikilib quraşdırılması ilə nəticələnirki, bütün bunlar Azərbaycan Respublikasının mülkiyyətidir. Bu müqavilələr həmçin Azərbaycan Respublikasının beynəlxalq aləmdə iqtisadi və siyasi əlaqələrinin inkişaf etdirilməsində, dünya maliyyə institutlarının və xarici şirkətlərin ölkəmizdə investisiya qoyuluşuna cəlb edilməsində də müstəsna rol oynamışdır.

Adətən qərb partnyorları beynəlxalq biznes qanunlarını əsas götürərək yüksək riskli regionlara investisiya qoyuluşuna ehtiyatla yanaşırlar. Ona görədə xarici investisiyanın 80%-i inkişaf etmiş ölkələrin iqtisadiyyatına yönəldiyi halda, yalnız qalan hissəsi inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına istiqamətləndirilir. Beləki, Cenevrə "UNİTAR" institutunun məlumatlarına görə dünya investisiya fondunun 95 %-i dünyanın 30 ölkəsində, qalan 5 %-i isə 140 ölkəsində yerləşdirilmişdir. Xarici investorlar öz investisiyalarının qoyulduğu ölkəni seçərkən adətən həmin ölkədəki siyasi və iqtisadi sabitlik, vəsait qoyuluşunun hüquqi təminatı, iqtisadiyyatın inkişaf modeli, habelə ölkənin təbii resurslarla zənginlik səviyyəsi amillərinə xüsusi diqqət verilir. Bu deyilənləri nəzərə alsaq respublikamızın iqtisadiyyatı xarici investisiya axını üçün çox əlverişli şəraitə malikdir. Eyni zamanda respublikanın təbii və insan resursları potensialına, xammal ehtiyatlarına malik olma üstünlükləri, qazma və istismar texnologiyasındakı çatışmamazlıqlar, yeni texnologiyaya kəskin ehtiyacın olması, investisiya resurslarının məhdudluğu və çatışmaması ölkənin dünya iqtisadi inteqrasiyasına qoşulmasını bir daha zəruri etmişdir.

Xarici investorların ölkəmizdə normal fəaliyyəti üçün bir sıra normativ və hüquqi sənədlər qəbul edilmiş, 1995-ci ildə investisiya üçün zəruri şərait yaratmağa yönəlmiş "İnvestisiya fəaliyyəti haqqında" Qanun qəbul edilmişdir. "Əsrin müqaviləsi"ndən sonra Azərbaycanda 27 saziş imzalanmış və bunlar "Hasilatın Pay Bölgüsünə" əsaslanırlar. SOCAR dünya təcrübəsindən bəhrələnərək şaquli-inteqrallaşmış şirkətə çevrilmiş, onun xarici dövlətlərlə əlaqələri genişlənmişdir. Beləki, SOCAR-ın Rumuniya, Türkiyə, Gürcüstan və digər ölkələrdə nümayəndəlikləri açılmış, bu isə şirkətə Qara dəniz və Aralıq dənizi bazarlarında səmərəli fəaliyyət imkanları yaratmışdır.

Ümumiyyətlə, respublikada həyata keçirilən yeni neft siyasəti yuxarıda qeyd edildiyi kimi onlarla neft müqaviləsinin imzalanmasını şərtləndirdi və bü müqavilələr respublika iqtisadiyyatının sabitləşdirilməsi və gələcək inkişafına istiqamətlənmişdir. Təkcə bir fakta nəzər salaq: "Əsrin müqaviləsi" sazişində ehtiyat ehtimalı 2-7 mlrd barel, müqavilənin bağlandığı 30 il ərzində (sonradan müqavilənin müddəti uzadılmışdır ) gözlənilən mənfəət 90 mlrd dollar təşkil

edir, bundanda 78 %-i Azərbaycana çatır və bu müqavilənin də vaxtı xeyli uzadıldı. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda neft sənayesinin inkişafı əsasən Xəzər sektorundakı yataqların istismarı ilə bağlıdır. Mütəxəssislərin hesablamalarına görə Xəzərdə potensial neft-qaz ehtiyatları 50-200 mlrd bareldir (7-28mlrd ton), bunlardan respublikamızın payına: təsdiq edilmiş ehtiyatlar 3,6-12,5 mlrd barel (500-1736 mln ton), ehtimal ehtiyatlar 27 mlrd barelə yaxın (3,8 mlrd ton), ümumi neft ehtiyatı isə 30-40 mlrd barel (4-6 mlrd ton) düşür.

Aşağıda SOCAR, xarici şirkətlərlə birlikdə və Azərbaycan Respublikası üzrə neft hasilatının dinamikasını əks etdirən trend modelləri verilmişdir. Trend modeli göstəricinin vaxta görə dəyişməsini xarakterizə edir və determinasiya əmsalı $R^2$ ilə səciyyələnir. Şəkillərdən göründüyü kimi hər üç halda bu göstəricinin qiyməti yüksəkdir, yəni uyğun olaraq $R^2$=0,7487; $R^2$=0,868; $R^2$=0,9776.

Enerji sektorunda 70 mindən artıq əməkdaş fəaliyyət göstərir və SOCAR Dövlət büdcəsinə müxtəlif ödənişlər edir (mənfəət vergisi, ƏDV, aksiz vergisi, torpaq vergisi, gəlir vergisi, mədən vergisi, əmlak vergisi, ixrac vergisi və s.). Son illərin iqtisadi nəticələrinin təhlili göstərirki, imzalanmış neft müqailələrinin "çox dəfəli artım effektinə" hesablanmış gözlənilən nəticə əldə edilmişdir, respublikanın sosial-iqtisadi problemlərinin həllində enerji sektoru danılmaz uğurlara sahibdir.

Fikrimizcə, bundan sonra da ölkə iqtisadiyyatının kompleks inkişafının təmin edilməsi üçün hökumət həm xarici, həm də daxili investisiyaların ölkənin strsteji əhəmiyyətli sahələrinə, o cümlədən infrastrukturun modernləşdirilməsinə yönəldilməsinə nail olmalıdır.

Qeyd olunduğu kimi, enerji sektoru təkcə büdcə gəlirlərinin artırılmasına görə deyil, həmçinin digər xüsusiyyətləri ilə, yəni sosial-iqtisadi problemlərin həllinə mühüm amil kimi təsir edir. Beləki, respublikada yeni neft siyasətinin reallaşdırılması digər sənaye sahələrinin də inkişafına neft dollarından sərmaye qoyuluşunu həyata keçirir. Hasilat həcminin artırılması və dünya bazarına çıxarılması həmçinin idxal mallarının miqdarını azaltmaq, respublikada yeni texnologiyalar yaratmaqla bu sahənin inkişaf etdirilməsi də sosial-iqtisadi problemlərin həllinə




**Şəkil 1. Neft hasilatı (SOCAR)**

nümunə ola bilər. Bu isə öz növbəsində yeni müəssisələrin, iş yerlərinin yaradılması, regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramlarının həyata keçirilməsi ilə sıx əlaqədardır. Azərbaycanın xarici neft şirkətləri ilə əməkdaşlığından alınan ümumi mənfəət əsasən aşağıdakı üç kateqoriyaya bölünür: nəğd pul axını; əmək haqqı, vergi və sosial ayırmalar; servis xidmətləri və arenda haqqı.

Qeyd etmək lazımdırki, Azərbaycanın Ümumi Daxili Məhsulunda (ÜDM) xarici investisiyaların payı 37.1%-dən (2014- cü il), 31%-ə (2020-ci il) enmişdir, lakin kəmiyyət miqdarında bu 21,89 mlrd manatdan(2014-cü il), 22,48 mlrd manata (2020-ci il) yüksəlmişdir.

10.61764/lasr.2.2023.73-81

Təhlil dövründə (2014-2020) ÜDM 13,56 mlrd manat (və ya 23%) artmış və 2020ci ildə 72,58 mlrd manat təşkil etmişdir. Həmçinin 2021-ci ildə ölkədə ÜDM 5,6 %, sənaye istehsalı 5,2% , o




**Şəkil 2. Neft hasilatı (xarici şirkətlərlə birlikdə)**

cümlədən artım tempi qeyri-neft sektoru üzrə 7,2%, qeyri-neft sənayesi üzrə 18.9%, kənd təsərrüfatı istehsalında 3,4 % təşkil etmişdir. Digər tərəfdən, 2021-ci ildə xarici ticarət dövriyyəsi35.6 mlrd ABŞ dollarına çatmış, müsbət ticarət saldosu 12,1 mlrd ABŞ dolları təşkil




**Şəkil 3. Neft hasilatı (Azərbaycan Respublikası)**

etmişdir. Keçən il respublikanın strateji valyuta ehtiyatları 2,5 mlrd ABŞ dolları artaraq 53 mlrd ABŞ dollarını ötmüş, bu isə xarici birbaşa dövlət borcunun 7 dəfədən çox örtməsi anlamına gəlir. Hesabat ilinin sonuna birbaşa dövlət borcunun məbləği 7,4 mlrd ABŞ dolları, 2020-ci ilin sonu ilə müqayisədə azalma 8,7% (və ya 707 mln ABŞ dolları) təşkil etmişdir. Hesabat ilində dövlət büdcəsinin gəlirləri 25,4 mlrd manat proqnoza qarşı 3,8 % artaraq 26,4 mlrd masnat olmuşdur. Hesabat ilində Azərbaycan Respublikasının qeyri-neft ixracı 2020-ci illə müqayisədə 870 mln dollar artıb və 2,7 mlrd ABŞ dolları təşkil etmişdir. 2021-ci ildə ÜDM 82,2 mlrd manat, ÜDM-da qeyri-neft sektorunun payı 55,1 mlrd manat (67,7 %), neft sektorunun payı isə 27,1 mlrd manat

(və ya 27,1%) olmuşdur. Hesabat ilində ÜDMun real həcmi 5,6%, qeyri neft sektorunun həcmi isə 7,2% artmışdır.

Azərbaycan Respublikasında 2022-ci ildə ÜDM 133,8 mlrd manat təşkil etmiş, bu isə 2021-ci illə müqayisədə 4,6% çox ÜDM deməkdir. Bunları sektorlar üzrə təhlil etsək görərikki, neft-qaz sektorunda əlavə dəyər 2,7 % azalmış, qeyri-neft sektorunda isə 9,1% artmışdır. Hər bir sahənin ÜDM-də payına nəzər salaq: sənaye-51,1%; ticarət və nəqliyyat vasitələrinin təmiri - 8,2%; nəqliyyat və anbar təsərrüfatı- 6,0%; kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq-4,8%; tikinti-4,8%; turistlərin yerləşdirilməsi və ictimai iaşə -1,6%; digər sahələrin payına isə -14,7% olmuşdur. Həmçinin, ÜDM-da məhsula və idxala xalis vergilər 7,4% təşkil etmiş, əhalinin hər nəfərinə düşən ÜDM isə 13,29 min man olmuşdur.

Qeyd etmək lazımdırki, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə2001-ci ildə Dövlət Neft Fondu (DNF) yaradılmış və Fondun formalaşması mənbələri göstərilmişdir (bonus ödənişləri, akrhesabı ödənişlər, müqavilələrə uyğun əldə edilən gəlirlər və s.). DNF-nun vəsaitlərinin istifadə qaydalarına müvafiq olaraq, bu vəsaitdən “ölkənin sosial-iqtisadi tərəqqisi naminə mühüm ümumimilli problemlərin həllinə və strateji əhəmiyyətli infrastruktur obyektlərinin inşa və rekonstruksiya edilməsinə istifadə oluna bilər”, “dövlət və qeyri-dövlət müəssisələrinə kredit verə bilər”. DNF-nun 2021-ci ildəki gəlirləri 8mlrd manat, xərcləri isə 12,2 mlrd manat təşkil etmiş, hazırda onun idarəçiliyində 32 mlrd ABŞ dollarə vəsait vardır. DNF-u 2022 -ci il üçün gəlirlərini 10.6 mlrd man, xərclərini isə 12,79 mlrd manat proqnozlaşdırır.

Dünya Bankının son məlumatlarına görə 2021-ci ildə 2020-ci illə müqayisədə enerji qiymətləri 77 %, qeyri-enerji qiymətləri isə 20 %-dən çox, BMT FAO təşkilatının məlumatına görə isə dünyada ərzaq qiymətləri 23 %-dən çox artmışdır ki, bu da son 10 ilin ən yüksək artımıdır. Hesabat ilində inflyasiyanın xarici amilləri əhəmiyyətli dərəcədə aktivləşmiş və Azərbaycanda xarici mənşəli ərzaq inflyasiyasının təsiri çox olmuşdur. Beləki, 2021-ci ildə ölkədə 2020-ci illə müqayisədə orta illik inflyasiya 6,7 %, 12 aylıq inflyasiya isə 12% təşkil etmiş və bu inflyasiyanın 60% -i ərzaq inflyasiyasının payına düşür. Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən güzəştli kreditlərin 59%-i aqrar sektora yönəlmişdir.

Sosial-iqtisadi inkişaf yollarında respublikanın əldə etdiyi nailiyyətlər beynəlxalq maliyyə qurumlarının reytinq siyahılarında onun yüksək yerlərə layiq görülməsi ilə nəticələnmişdir. Beləki, Dünya Bankının “Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Davos Dünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yeri, ölkə rəhbərliyinin islahatlara sadiqliyi baxımından isə 5-ci yeri tutub.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının əsas məsələlərindən biri səmərəli, rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılmasıdır. Respublika iqtisadiyyatının yaxın onilliklər ərzində inkişafının istənilən variant və ssenarisində yanacaq-enerji resursları əsas amillərdən olacaqdır. Müasir dövrdə neft sənayesi ölkə iqtisadiyyatının “lokomotivi” rolunu oynayır, cünki bu sahə respublika büdcəsinin mədaxil hissəsinin yarıya qədərini formalaşdırır, sənaye məhsulunun yarıdan çoxu onun payına düşür.Neft-qaz kompleksinin digər sahələrə nisbətən müvəffəqiyyətli fəaliyyəti onun digər sahələrlə müqayisədə uzunmüddətli dayanıqlı durumundan xəbər verir və respublika büdcəsinin əsas donoruna çevirir.

**Nətcə**

1.Məqalədə neft-qaz sənayesinintəkamülü mərhələlərə bölünmüş, hər bir mərhələnin xüsusiyyətləri göstərilmişdir.

2.”Əsrin müqaviləsi” ilə başlanan və sonrakı neft müqavilələri ilə inkişaf edən Yeni neft siyasəti, onunölkənin sosial-iqtisadi həyatındakı rolu qiymətləndirilmiş, ÜDM-da neft sənayesinin yeri və rolu göstərilmişdir.

3. Neft- qaz kompleksi hələ uzun müddət Azərbaycan iqtisadiyyatının mühüm sənaye sahələrindən olacaq, onun inkişaf perspektivləri, dünyanın aparıcı neft şirkətləri arasındakı yeri və rolunun tədqiqi prioritet məsələ olaraq qalacaq və bu sahənin idarəetmə quruluşunun “şaquli-

inteqrallaşmış" sistemə uyğunlaşdırılmasının başa çatdırılması ölkənin iqtisadiyyatına dönmədən inteqrasiyasını daha da sürətləndirəcəkdir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1.Hacızadə E.M. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli Bakı, Elm, 2002,472 s.

2.Abdulayev Z.S.,Hacızadə E.M. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası, Bakı, Elm, 2003, 512s.

3. Səfərov Q.Ə., Məmmədova M.B. Neftqazçıxarmada istehsal səmərəliliyinin yüksəldilməsi yolları Bakı, "Təknur", 2014,384 s.

4.Osman Nuri Aras, Elçin Süleymanov Azərbaycan iqtisadiyyatı, "Şərq-Qərb" mətbəəsi, 2016, 412s.

5. Rəhmanov Fərhad, Süleymanov Elçin Azərbaycan iqtisadiyyatı (makroiqtisadi analiz) Bakı, 2021, 408 s.

6. Мирзаджанзаде А.Х., Султанов Ч.А Этюды нефтяной концепции Азербайджана Баку,1994,100с.

**Ганимат Сафаров**
**Сабина Садыхова**

**РОЛЬ НЕФТЕГАЗОВОЙ ПРОМЫШЛЕННОСТИ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА**

**Резюме**

*Нефтяная и газовая промышленность является одной из традиционных отраслей Азербайджанской Республики. Контакт с нефтью в Азербайджане восходит к глубокой древности, и есть факты, что на Апшеронском полуострове существовала карта нефтяных скважин 1729 года. Промышленная добыча нефти начинается с бурения первой механизированной нефтяной скважины в Азербайджане (1872 г.) и ввода ее в эксплуатацию. В начале XIX века, то есть в 1901 году, 49% добываемой в мире нефти принадлежало Азербайджану, 39% — Соединённым Штатам Америки (США), 4% — России и 8% — другим странам.*

*Азербайджанская нефть сыграла важную роль в развитии экономики как бывшего союза, так и нынешней независимой страны. Достаточно сказать, что в 1941 году в Азербайджане было добыто 23,41 миллиона тонн нефти, и ее большая роль в победоносном окончании Второй мировой войны была неоспорима. Даже после восстановления нашей независимости нефтегазовая отрасль сыграла очень важную роль в становлении и развитии экономики Азербайджана.*

***Цель***-определить роль нефтегазовой промышленности в формировании и развитии экономики Азербайджана, влияние реализации заключенных договоров на экономику страны.

***Методика***-использовались методы группировки, систематизации, математико-статистического моделирования.

***Результаты исследования***-изучены особенности договоров, заключаемых в нефтегазовой отрасли, изучение влияния их результатов на социально-экономическое развитие экономики республики, вопросы обеспечения развития ненефтяного сектора с использованием нефтяных доходов.

***Ключевые слова***: Азербайджанская Республика, нефтегазовая промышленность, нефтяные контракты, социально-экономическое развитие, математико-статистическое моделирование

10.61764/lasr.2.2023.73-81

**Qanimat Safarov**
**Sabina Sadogova**

## ROLE OIL AND GAS INDUSTRY IN AZERBAIJAN ECONOMY

**Summary**

*The oil and gas industry is one of the traditional industries of the Republic of Azerbaijan. Contact with oil in Azerbaijan dates back to ancient times, and there are facts that there was a map of oil wells on the Absheron Peninsula in 1729. The industrial exploitation of oil begins with the drilling of the first mechanized oil well in Azerbaijan (1872) and putting it into operation. At the beginning of the 19th century, that is, in 1901, 49% of the oil produced in the world belonged to Azerbaijan, 39% to the United States of America (USA), 4% to Russia and 8% to other countries.*

*Azerbaijani oil has played an important role in the development of the economy of both the former union and the current independent country. It is enough to say that in 1941, 23.41 million tons of oil were produced in Azerbaijan, and its great role in the victorious end of the Second World War was undeniable. Even after the restoration of our independence, the oil and gas industry has been very important in the formation and development of the economy of Azerbaijan.*

***The aim is to determine the role*** of the oil and gas industry in the formation and development of the economy of Azerbaijan, the impact of the implementation of concluded contracts on the country's economy.

***Methodology***-methods of grouping, systematization, mathematical and statistical modeling were used.

***The results of the study***-the peculiarities of contracts concluded in the oil and gas industry, the study of the impact of their results on the socio-economic development of the economy of the republic, the issues of ensuring the development of the non-oil sector using oil revenues.

***Keywords:*** Azerbaijan Republic, oil and gas industry, oil contracts, socio-economic development, mathematical and statistical modeling